*AMEA Filologiya və sənətşünaslıq, 2025, № 2* *ISSN 2663-4368*
*Səhifə:195-201* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2025.2.195*

# Rutul xalqının unudulmaz sənət növləri

**Elvin Qarayev**
AMEA-nın Şəki Regional Elmi Mərkəzi,
elvin_qarayev_1993@mail.ru
ORCID ID: https://orcid.org/0000-0002-5496-744X

**Annotasiya:** Məqalədə Azərbaycanda yaşayan azsaylı xalqlardan olan rutulların məşğuliyyəti, sənət növləri haqqında məlumat verilmişdir. Tədqiqat işində geyim vasitələri (papaq, çarıq, jaket, yun corab (qvalt)), həmçinin istifadə etdikləri dəmir əşyalar və onların hazırlanması, istifadə etdikləri çalğı alətləri və onların hazırlanması yolları, hazırlanma zamanı istifadə olunan vasitələr, üsullar haqqında məlumat qeyd olunmuşdur. Bununla yanaşı rutulların yaşadığı Şin kəndində yerləşən və fəaliyyət göstərən dəyirman haqqında da məlumatlar öz əksini tapmışdır. Azsaylı xalqların folkloru həmin icmaların tarixini, dünyagörüşünü, məişətini və ənənələrini əks etdirən zəngin mədəni irs nümunəsidir. Folklor yalnız bədii yaradıcılıq forması deyil, həm də xalqın sosial yaddaşı, onun mənəvi kimliyini qoruyan ən mühüm vasitələrdən biridir. Azərbaycanda yaşayan azsaylı xalqlar – ləzgilər, avarlar, saxurlar, rutullar, tatlar, udinlər və digər etnik qrupların folkloru əsrlər boyu şifahi ənənə yolu ilə nəsildən-nəsilə ötürülmüşdür. Bu xalqların dastanları, nağılları, bayatı və mahnıları, eləcə də mərasim folkloru onların həyat tərzi, təsərrüfat məşğuliyyəti və dini inancları ilə sıx bağlıdır. Xüsusilə əmək nəğmələri, toylarda və mərasimlərdə ifa olunan xalq musiqisi nümunələri, mifoloji təsəvvürləri əks etdirən rəvayətlər bu xalqların mənəvi-mədəni müxtəlifliyini nümayiş etdirir. Folklor nümunələrinin öyrənilməsi azsaylı xalqların mədəniyyətinin qorunması, onların milli kimliyinin saxlanması və gələcək nəsillərə çatdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Bu sahədə aparılan tədqiqatlar həm etnoqrafiya, həm də mədəniyyətşünaslıq elmi üçün dəyərli mənbə rolunu oynayır.
**Açar sözlər:** rutul, tarix, folklor, sənət, xalq, ənənə

**Məqalə tarixçəsi:** göndərilib – 16.10.2025; qəbul edilib – 14.11.2025

# The most memorable art of the rutul people

**Elvin Garayev**

**Abstract:** The article informed about the types of employment of the ruthies from the minor nations living in Azerbaijan. In the research work, clothing (cap, charty, jacket, woolen socks (qvalt) are also noted that the tools used by the iron items and their preparation, and their preparation, methods used during preparation. At the same time, the information is reflected in the village of Shin, where the ruthies live in the village of Shin. Folklore of small peoples is an example of a rich cultural heritage reflecting the history, outlook, household and traditions of these communities. Folklore is not only the form of artistic creativity, but also the public memory of the people, the most important tools to protect its spiritual identity. The few people living in Azerbaijan – Lezgians, avars, sahurlar, ruthies, tatlar, wanders and other ethnic groups were transferred from generation to generation through centuries. These peoples are closely related to the epics, tales, bayati and songs, as well as the ceremonial folklore with their lifestyle, economic occupation and religious beliefs. Especially for labor songs, samples of folk music performed in weddings and ceremonies, narrations reflecting mythological imagination demonstrate the moral and cultural diversity of these peoples. The study of folklore samples is important in terms of maintaining the culture of a small number of peoples, maintaining their

national identity and delivering to future generations. Research in this area plays a valuable source for both ethnography and cultural history.
**Keywords**: Rutul, History, Folklore, Art, People, Tradition

**Article history:** received – 16.10.2025; accepted − 14.11.2025

## Giriş / *Introduction*

Folklor hər bir xalqın yüksək mənəvi-əxlaqi dəyərlərini, etik və estetik düşüncəsini özündə əks etdirən onun mənəvi sərvətidir. Hər bir xalqın tarixi, adət-ənənəsi, ictimai-siyasi düşüncəsi, əxlaqi keyfiyyətləri, qəhrəmanlığı və vətənpərvərliyi bütöv və özünəməxsus şəkildə onun folklorunda cəmlənmişdir. Bu baxımdan Azərbaycanda yaşayan rutulların folklor nümunələri maraq doğurur. Rutullar Azərbaycanın şimal-qərb bölgəsində - Şəki rayonunda yaşayırlar. Əhali əsasən əkinçilik və maldarlıqla məşğul olur. Rutulların mövzu və məzmun baxımından rəngarəng olsa da, Azərbaycan folklor nümunələri ilə bir sıra ortaq cəhətlərə malikdir. Şifahi söz sənətində bir çox mətnlərin üst-üstə düşməsi həmin örnəklərin vahid etnocoğrafi məkanda əmələ gəlməsini göstərir. Azərbaycan folklor nümunələri ilə bir sıra ortaq cəhətlərlə yanaşı, rutul folklorunun özünəməxsus cəhətləri az deyildir. Şübhəsiz ki, Yer kürəsində təbiətin gözəlliyi onun müxtəlif relyefə, torpağa, suya və iqlimə malik olması ilə müəyyən olunduğu halda, cəmiyyətdə bu gözəllik xalqların dil müxtəlifliyi, onların folkloru, adət-ənənələri və mədəniyyəti ilə təmsil olunur. Azsaylı xalqların folklorunun böyük xalqların mədəniyyətinə inteqrasiya etməsi onların daha böyük mədəniyyətin kulminasiya zirvəsinə ucalmasına səbəb olur. Bununla yanaşı, rutul xalqının folklorunun, dil və adət-ənənələrinin öyrənilməsi onun mədəniyyətinin qorunub saxlanılmasına səbəb olacaqdır. Şübhəsiz ki, rutul xalqının folkloru və dilinin öyrənilməsi, rutul xalqına məxsus yaradıcılıq nümunələrinin gələcək nəsillərə çatdırılmasında və qorunmasında böyük rol oynayacaqdır [1, s. 126-134].

**Metodika*:*** Tədqiqat işində rutul xalqının məşğuliyyət sahələri, sənət növləri, geyim mədəniyyəti, məişət əşyaları və musiqi alətləri haqqında məlumatların toplanması üçün tarixi-etnoqrafik yanaşmadan istifadə edilmişdir.

Məlumatların əldə olunmasında aşağıdakı metodlar tətbiq olunmuşdur:

1. Ədəbiyyat təhlili – mövcud elmi mənbələr, arxiv materialları və folklor nümunələri öyrənilmişdir.
2. Sahə müşahidəsi – rutulların yaşadığı Şin kəndində aparılan müşahidələr nəticəsində onların gündəlik məişəti və ənənəvi sənət nümunələri qeydə alınmışdır.
3. Mülakat və şifahi məlumat toplama – kənd sakinləri ilə aparılan söhbətlər nəticəsində ənənəvi geyim, sənətkarlıq və çalğı alətləri ilə bağlı məlumatlar toplanmışdır.
4. Müqayisəli təhlil – rutul xalqının sənət və məişət nümunələri digər Qafqaz xalqlarının oxşar ənənələri ilə müqayisə olunmuşdur.

Bu metodların tətbiqi nəticəsində rutul xalqının zəngin mədəni irsi haqqında etnoqrafik və tarixi məlumatlar sistemləşdirilmiş, onların ənənəvi həyat tərzinin əsas xüsusiyyətləri müəyyənləşdirilmişdir.

**İşin məqsədi**. Respublikamızın şimal-qərb bölgəsində yaşayan azsaylı xalqlardan olan rutulların sənət növləri olan toxuculuq, dəmirçilik, çalğı alətlərinin hazırlanması və bu sahəni araşdırmaq əsas məqsəddir. Bu sahədə toplama aparmaq əsas vəzifədir.

## Əsas hissə / *Main Part*

Hər xalqın, millətin öz etnoqrafiyası, folkloru, adət-ənənəsi vardır. Bizim ana vətənimiz Azərbaycan Respublikası etnoqrafiya, folklor, adət-ənənə cəhətdən çox zəngindir. Azərbaycan Respublikasında yaşayan azsaylı xalqlardan biridə rutullardır. Rutulların gözəl adət-ənənələri, sənət növləri vardır. Keçmişdə yaşlı nəsillərin istifadə etdiyi və müasir dövrdə gənc nəsillərə

ötürülən belə sənət növlərindən biri də ***pinəçilik*** sənətidir. Rutullarda pinəçiliklə məşğul olmuş yaşlı nəslin nümayəndələri əsasən ***çarıq*** (k′al′anbır) adlı ayaqqabıları hazırlayırdılar. ***Çarıq*** (k′al′anbır) əsasən at, inək, qoyun dərisindən və sonradan maşın təkərində yerləşən kameldən düzəldirdilər. ***Çarığın*** (k′al′anbır) hazırlanma qaydası isə belədir: maşın kameli və ya dəri yerə qoyulub ayağın ölçüsü götürülür. Ayağın ölçüsü götürüləndən sonra qırağına deşiklər açılır (ip keçirmək üçün). Bundan sonra onu bağlamaq üçün rezindən ip (çurni) hazırlanır. Daha sonra həmin hazırlanmış nazik uzun rezin deşilmiş digər altlıq rezindən keçirilərək (ayaqqabıdan ip keçirilən kimi) ***çarıq*** hazırlanır. Nazik ip formasında olan rezin digər altlıq rezindən keçirilən zaman rezin arxa tərəfə keçirilir ki, həmin çarığı geyinib gəzən zaman ayağa heçnə ilişməsin. Keçmişdə ayaqqabı olmayanda həmin ***çarıqdan*** çox istifadə olunub [2, s. 98-101].



***Şəkil 1.*** *Rutul ağsaqqal nümayəndəsi, Şin kənd sakini Seyidxanov Mikayıl Güləhməd oğlu çarıq (k'al'anbır) hazırlayarkən.* ***08 İyun 2025.***
*(Foto AMEA Şəki Regional Elmi Mərkəzinin əməkdaşı Elvin Qarayevə məxsusdur.*

Rutul folklorunun maraqlı adət-ənənələrindən biri də papaqçılıq olub. Əsasən maldarlıqla məşğul olan rutullar qoyun dərisindən hazırlanmış papaqdan daha çox istifadə ediblər. Qoyun dərisindən hazırlanmış papağın hazırlanma qaydası isə belədir: qoyun dərisi duzlanıb qoyulur. Daha sonra dəri kəvkir ilə aşılanır (dınılanır). Belə olanda dəri yumşalır. Yumşalandan sonra dəri tikilmək üçün daha rahat olur. Papaq ***(q'açiy)*** üçün hazırlanmış bu dəri iki hissədən ibarət olur: yan dəri və üst dəri. Yan dəri yumru formada tikilir. Həm yan, həm də üst hissəyə, yəni dərinin içərisinə parça tikilir. Yan dəri yumru formada tikilib hazır olandan sonra üst hissə tikilir [3, s. 121-127].



***Şəkil 2.***



***Şəkil 2.1.***

***Şəkil 2., 2.1.*** *Rutul ağsaqqal nümayəndəsi, Şin kənd sakini Qurbanov Cəbrayıl Güləhməd oğlu dəridən papaq hazırlayərkən.* ***08 İyun 2025.***
*(Foto AMEA Şəki Regional Elmi Mərkəzinin əməkdaşı Elvin Qarayevə məxsusdur.*

**Toxuculuq.** Toxuculuq rutul nənələrinin əsas məşğuliyyət sahəsi olub. Bu sahə ilə məşğul olanlar müxtəlif geyim vasitələri olan: **jaket**, **yun corab (qvalt), papaq** hazırlayırdılar. Qeyd olunan geyim vasitələrinin hazırlanmasında yundan istifadə olunur. Əvvəl qoyun yu-

nu su ilə təmiz yuyulur. Yun yuyulub hazır olandan sonra yun darayan **daraqdan (ra′ı′ğ′)** keçirilir. Yun ona görə daraqdan keçirilir ki, tam nazik və incə olsun. Belə olanda ondan çox gözəl ip alınır. Sonra isə ondan uzun nazik ip **(ja′l)** alınır. Bu ip cəhrə adlanan ip hazırlayan, əl ilə hərəkətə gətirilən maşından alınır. Alınan ip ağ rəngdə olur (yəni yun rəngində). Bundan əlavə rəng qatmaqla rəngli ip hazırlanırdı. Rəng olmayanda həmin ipi tut ağacının kökü, yarpağı və qoz ağacının yarpağı, kökü ilə birlikdə suda saxlayırdılar. Belə suda saxlayanda həmin ip müəyyən rəng alırdı. Hazır olan belə iplərdən toxuculuq sahəsində istifadə olunurdu. İplərlə toxumaq üçün uzun iynə formasında olan **mil-lərdən** istifadə olunur [4, s. 67-80].



***Şəkil 3.***



***Şəkil 3.1.***



***Şəkil 3.2.***



***Şəkil 3.3.***

***Şəkil 3., 3.1., 3.2., 3.3.*** *Şin kənd sakini Həsənova Surayə Qəhrəman qızı toxuculuğa aid olan geyim vasitələrini toxuyarkən.* ***10 İyun 2025.*** *(Fotolar AMEA-nın Şəki Regional Elmi Mərkəzinin əməkdaşı Elvin Qarayevə məxsusdur).*

Rutullar həmçinin mahnı, bayatı, toy adətlərinə daha çox maraq göstərən xalqdır. Onların istifadə etdiyi əsas çalğı alətlərdən biri ***meydir***. ***Mey*** qamışdan hazırlanır. Uzun qamış buğum hissəsindən kəsilir. Qamışın bir ucuna ***şana (süpsi)*** taxılır. Qamışın üst hissəsində barmaqların ölçüsünə uyğun deşiklər açılır. Əsas səs ***şanadan (süpsidən)*** çıxır. Sonra ***şana (süpsi)*** qamışa taxılır. Beləliklə ***mey*** adlanan çalğı aləti hazır olmuş olur. Bəzən ***meyin*** ucuna buynuz taxılır. Buynuz mal buynuzu olmalıdır. Buynuz ocaqda qızdırılıb təmizlənmiş buynuz olmalıdır. Təmizlənmiş buynuz ***meyin*** ucuna taxılır. Ucuna buynuz taxılan ***meydan*** daha gözəl və yüksək səs çıxır. Yəni ***meyin*** ucuna buynuz taxmaqda məqsəd səsin daha gur, uca çıxması üçündür [5, s. 136-141].



***Şəkil 4.***



***Şəkil 4.1.***

***Şəkil 4., 4.1.*** *Şin kənd sakini Cabbarov Əşrəf Nəzir oğlu mey çalğı alətini hazırlayarkən.* ***17 İyun 2025.*** *(Fotolar AMEA-nın Şəki Regional Elmi Mərkəzinin əməkdaşı Elvin Qarayevə məxsusdur).*

Rutulların yaşadığı Şin kəndində keçmişdən müəyyən su dəyirmanları mövcud olub. Əvvəllər belə su dəyirmanların sayı iki olsa da, hal-hazırda həmin dəyirmanlardan biri tamamilə yoxa çıxıb, biri isə su ilə yox, müasirləşdirilərək elektrik enerjisi ilə işləyir. Dəyirmanda həm insanlar üçün un (daha çox qara una üstünlük verilir, səbəb isə qara unun insan orqanizmi üçün daha faydalı və xeyirli olmasıdır), həm də heyvanlar üçün yem üyüdülür. Bu dəyirmanda təkcə kənd sakinləri yox, həm də qonşu kəndlərin sakinləri də istifadə edir. Dəyirman su ilə işləyən vaxtı axar sudan dəyirmana doğru bir su kanalı çəkilirdi. Bu çəkilən suyun iti sürətlə axan hissəsində böyük pər qoyulurdu. Həmin pərin suyu dövr etdirməsi nəticəsində enerji əldə olunurdu ki, həmin əldə olunmuş enerji dəyirman daşını hərəkətə gətirirdi. Nəticədə un üyüdülürdü. Hal-hazırda qalan dəyirmandan nümunə olaraq aşağıdakı şəkilləri göstərə bilərik [6].



***Şəkil 5***



***Şəkil 5.1.***

***Şəkil 5., 5.1.*** *Şin kəndində yerləşən dəyirman və dəyirmanın sahibi Paşayev Akif Kamil oğlu. (Qeyd: dəyirman əvvəllər su ilə işləsə də hal-hazırda elektrik enerjisi vasitəsilə işləyir).*

Şin kəndində yaşayan rutulların əsas məşğuliyyət sahələrindən biri də dəmirçilik sənəti olub. Əvvəllər bu sənət ilə məşğul olsalar da, müasir zamanda demək olar ki bu sənət növü yaşamır. Kənddə ancaq bir nəfər kənd sakini Misirxanov Ziyəddin bu atadan qalan peşəni yaşadır. Dəmirçiliklə məşğul olan kənd sakini Misirxanov Ziyəddin müəyyən növ məişət əşyaları, at üçün nal və digər lazımi əşyalar düzəldir. Kənd sakinləri üçün əsas lazım olan əşyalar məişətdə istifadə olunan kəsici alətlərdir. Kəsici alətlərin hazırlanması üçün əvvəlcə kömür vasitəsi ilə ocaq qalanır. Daha sonra müəyyən dəmir parçaları həmin ocağın içinə qoyularaq tam şəkildə qızdırılır. Tam qızmış halında olan dəmir döyülərək nazikləşdirilir, ondan özlərinə lazım olan formada əşyalar düzəldilir. Dəmirin döyülməsi üçün böyük çəkicdən və zindan adlanan dəmirdən istifadə olunur. Zindan iri çəkili dəmir parçasıdır. Qızardılmış dəmir zindanın üstünə qoyulur və iri çəkili çəkic vasitəsilə döyülür. Hazırlanan məişət əşyalarından balta, dəhrə, çəkic, ling, külüng misal göstərə bilərik. Məişətdə istifadə olunan kəsici, deşici alətlərlə yanaşı at üçün nal hazırlanır. Nalın hazırlanması üçün boru formasında olan içi dolu nazik dəmirdən istifadə olunur. Həmin dəmir qızdırılır və döyülərək nal formasına salınır. Daha sonra isə deşiklər açılır və beləliklə nal hazır olmuş olur [7].



***Şəkil 6.***



***Şəkil 6.1.***

***Şəkil 6., 6.1.*** *Şin kənd sakini Misirxanov Ziyəddin Hüseyn oğlu dəmirçilik sənəti ilə məşğul olarkən. Şəkillərdə məişət əşyalarının hazırlandığı göstərilir.*

Rutul xalqının istifadə etdiyi və bu sahə ilə məşğul olduğu əsas sənət növlərindən biri də çalğı alətlərinin hazırlanmasıdır. Bura kos nağara, bala nağara və zurna aiddir. Rutul toylarının əsas bəzəyi məhz bu çalğı alətləri təşkil edir. Çalğı alətlərinə daxil olan həm kos nağara həm də balaca nağara tut ağacından hazırlanır. Tut ağacından nağara ölçüsünə uyğun olaraq parça kəsilir. Sonra həmin kəsilmiş ağac parçası qırx gün qaranlıq yerdə saxlanılır. Qaranlıq yerdə saxlamasının səbəbi isə öz tamında qurumasıdır. Qaranlıq yerdə quruyan ağac öz tamında quruyur. Kəsilmiş ağac parçası dik vəziyyətdə saxlanılır. Bunun səbəbi isə tərkibində olan suyun tam və bütöv şəkildə süzülməsidir. Yatım formasında qoyulanda isə su tamam süzülmür. Qırx gündən sonra ağac tam quruyur. Ağac quruyandan sonra içi ovulur. Ağacın içi ovulanda qırağından bir sm qalınlıqda saxlanılır. Ağac hazır olanda üst hissəsinə dəri hazırlanır. Dəri ancaq ağ erkək keçi dərisindən hazırlanır. Dərinin hazırlanması isə belədir: keçi nə qədər yaşlı olsa o qədər yaxşıdır. Çünki cavan yaşda olan keçinin dərisi dözümlü olmur. Adətən 5-6 yaşda olan keçi dərisindən istifadə olunur. Keçi dərisi soyulandan sonra qırxılır. Qırxılmış dəri duzlanaraq qoyulur. Daha sonra nağara ölçüsündə kəsilərək qırağına yumru məftil salınır. Məftil salınandan sonra qıraqları tikilir. Dəri hazır olandan sonra möhkəm ip vasitəsilə bağlanır və nağara hazır olmuş olur. Nağaranın ağac hissəsində deşik açılır. Bu isə havanın işlənməsi üçündür. Balaca deşik açılmayanda nağaradan səs çıxmır. Digər çalğı alət isə zurnadır. Rutul ağsaqqalların verdiyi məlumata görə zurna qurumuş ərik ağacının özək hissəsindən hazırlanır. Qurumuş ərik ağacının özək hissəsindən hazırlananda daha keyfiyyətli və effektli olur. Zurnaya taxılan səs verən hissə beçə hissəsi adlanır [8].



***Şəkil 7.***



***Şəkil 7.1.***

***Şəkil 7., 7.1.*** *Rutul ifaçıları kos nağara, bala nağara və zurnada ifa prosesi zamanı, eyni zamanda nağara və zurnanın hazırlanma texnologiyasını izah edərkən bu musiqi alətlərinin konstruktiv xüsusiyyətləri, istifadə olunan materiallar və ifa texnikası haqqında ətraflı məlumat təqdim edirlər.*

**Nəticə / *Conclusion***

Azərbaycan Respublikasının folkloru rəngarəngliyi ilə seçilir. Öz gözəl adət-ənənələri ilə, zənginliyi ilə seçilən Azərbaycan folklorunun maraqlı biri nümunələrindən biri də azsaylı rutulların folklorudur. Burda əsas məqsəd rutulların folklor nümunələrinin toplanması və tədqiqidir. Folkloruna görə zəngin olan şimal-qərb bölgəsinin folkloru çox zəngindir. Bu bölgədə yaşayan azsaylı xalqların nümayəndələrindən olan rutulların folkloru ümumi folklorun zənginləşməsində mühüm rol oynayır. Məqalədə bəhs olunan rutul sənət növləri: ***çarıq, toxuculuq, dəmirçilik, çalğı alətlərinin hazırlanması*** maraqlı bir informasiyadır. Qeyd etdiyimiz məlumatlar həm tarixi, həm də rutul xalqının araşdırılması cəhətdən maraqlı mənbədir.

**Ədəbiyyat / *References***


1. Garayev E., Hüseynova S. The small rutul people are part of a sıngle Azerbaijanı famıly. Gənc Tədqiqatçı, 2023 № 3, səh 126-134.
2. Qarayev E. Rutullar: tarixdən bu günə. Elm və həyat jurnalı № 2 (484), 2024. Səh 98-101.
3. Qarayev E. Azsaylı rutul xalqının folkloruna bir baxış. Dədə Qorqud jurnalı № 3 (89), 2024. Səh 121-127.
4. Qarayev E. Azsaylı rutul xalqı vahid Azərbaycan ailəsində. Şərq araşdırmaları jurnalı Vol.7, № 1 (11), (2025). Səh 67-80.
5. Qarayev E. Azərbaycanın şimal-qərb bölgəsində yaşayan rutulların folkloru: bayatılar, atalar sözləri və nəğmələr. Dədə Qorqud jurnalı № 1 (2025). Səh 136-141.
6. https://multikultural.az/az/medeni-muxteliflik/595/rutullar-tarix-medeniyyet-din/
7. http://samurpress.net/story.php?sid=2262
8. https://az.wikipedia.org/wiki/Rutullar


**Самое запоминающее искусство рутульского народа**

**Эльвин Караев**

**Резюме:** В статье сообщили о типах занятости ручек от несовершеннолетних стран, живущих в Азербайджане. В исследовательской работе одежда (кепка, чарти, куртка, шерстяные носки (гвалт) также отмечаются, что инструменты, используемые железными предметами и их подготовкой, и их подготовка, методы, используемые во время подготовки. В то же время информация отражается в деревне Шин, где живут ручки в деревне Шин. Фольклор мелких народов является примером богатого культурного наследия, отражающего историю, взгляды, домашнее хозяйство и традиции этих сообществ. Фольклор – это не только форма художественного творчества, но и публичная память о народе, самые важные инструменты для защиты его духовной идентичности. Несколько человек, живущих в Азербайджане – лезджианах, аварса, Сахурлар, Рути, Татлар, Вондерс и другие этнические группы, были переведены из поколения в поколение на протяжении веков. Эти народы тесно связаны с эпопами, сказками, байати и песнями, а также церемониальным фольклором с их образом жизни, экономическим занятием и религиозными убеждениями. Особенно для трудовых песен, образцы народной музыки, исполняемые на свадьбах и церемониях, повествования, отражающие мифологическое воображение, демонстрируют моральное и культурное разнообразие этих народов. Изучение образцов фольклора важно с точки зрения поддержания культуры небольшого числа людей, поддержания их национальной идентичности и предоставления будущим поколениям. Исследования в этой области играют ценный источник как для этнографии, так и для истории культуры.

**Ключевые слова:** Рутул, история, фольклор, искусство, люди, традиция